№34 ƏDƏBİYYAT QƏZETİ

19 sentyabr 2025-ci il 25

## *Güləmail MURAD-75*



Hörmətli Güləmail xanım!

Sizi - tanınmış şairi 75 illlik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1950-ci ildə Ağstafa rayonunun Sadıqlı kəndində dünyaya göz açmısınız. Böyük Kəsik kənd məktəbini 1968-ci ildə fərqlənmə attestatı ilə bitirib, həmin il Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin neftmədən fakültəsinə qəbul olunmusunuz. Nümunəvi tələbə kimi Tələbə Elmi Cəmiyyətinə üzv seçilmisiniz. Bədii yaradıcılığa orta məktəb illərindən başlasanız da, ilk mətbu şeiriniz 60-cı illərin sonlarında məhz "Neft kadrı uğrunda" qəzetində dərc edilmişdir. 1973-cü ildə ali təhsilini tamamlayıb, əmək fəaliyyətinə başlamışdır. Uzun müddət Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdindəki Neft-Energetika Kollecində ixtisas fənnindən dərs demisiniz.

Siz ədəbi ictimaiyyətin maraqla qarşıladığı "Güldüm göynəyə-göynəyə", "Sənli-sənsiz", "Gecələr ulduzlar üstümə tökülür", "Qarabağ harayı", "Anasızlıq fəryadı", "Qələmim əlimdə lələkdən idi", "Yazmadıqlarım qapımı döyür", "Vətən sağ olsun!", "Balaca müdrik", "Dağlarda şəhid səsi", "Günəş qürub edəndə", "Bir damla yaş", "Ruhumun qanadları", "Qayıdış", "Qəhrəmanlıq yüksəkliyi", "Aprel döyüşləri" (trilogiya), "Yaddaşlardan gələn səslər", "Günnüt zəfəri", "Canını Vətənə sərhəd elədi...", "Zəka çırağı", "Mən bulud gözlü, sən yağış" və s. kitabların müəllifisiniz.

Qarabağ müharibəsi başlayandan indiyədək hərbi mövzuda iyirmiyə yaxın kitabınız çapdan çıxmışdır. Ölkəmizdən kənarda da sizin yaradıcılığınız yetərincə dəyərləndirilir. Kitablarınız Türkiyədə, Özbəkistanda, İranda, Misirdə, türk, özbək, fars, ərəb, ingilis, fransız dillərində, həmçinin əski əlifba ilə ana dilimizdə işıq üzü görmüşdür. "Döyüş yolları" poemanız rus dilində də oxuculara təqdim olunmuşdur.

Sözlərinizə mahnılar, hərbi marşlar bəstələnmişdir. İctimai fəaliyyətiniz də təqdirəlayiqdir. Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi idarə heyətinin, "Bura vətəndir" Vətənpərvər Ziyalılar Cəmiyyətinin üzvü və respublika Qadınlar Şurasının sədr müavini seçilmisiniz (2007). Türkmən Ədəbiyyat və Yazarlar Birliyinin, İraq Türkmən Ədəbiyyatçılar Birliyinin, İLESAM-ın üzvüsünüz.

Ədəbi uğurlarınız və ictimai fəaliyyətiniz bir çox mükafat, diplom və fəxri fərmanla dəyərləndirilmişdir. İki dəfə respublika Sərhəd Xidmətinin keçirdiyi ədəbi müsabiqənin laureatı olmuş, Beynəlxalq Rəsul Rza mükafatına, Azərbaycan Veteranlar Şurasının "Əliağa Şıxlinski" medalına, qardaş Türkiyənin bir çox ödüllərinə layiq görülmüsünüz.

Hörmətli Güləmail xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**